1_Layout 1 28.03.2018 17:06 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 07 (523)

31 mart 2018-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## BƏRDƏDƏ PREZİDENT İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ PAMBIQÇILIĞIN İNKİŞAFINA DAİR RESPUBLİKA MÜŞAVİRƏSİ KEÇİRİLİB

Martın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bərdədəki Mədəniyyət Mərkəzində pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib.

**AZƏRTAC** xəbər verir ki, Mədəniyyət Mərkəzinin foyesində ölkəmizdə pambıqçılığın inkişafı ilə əlaqədar Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ənənələrin yenidən dirçəldilməsinə həsr olunmuş fotostend nümayiş etdirilib.

Dövlətimizin başçısı respublika müşavirəsində giriş nitqi söyləyib.

**Prezident İlham Əliyevin giriş nitqindən:**

- Biz bugünkü müşavirədə Azərbaycanda pambıqçılığın gələcək inkişafı ilə bağlı danışacağıq. Bildiyiniz kimi, 2016-cı ildən başlayaraq Azərbaycanda pambıqçılığa çox ciddi dövlət dəstəyi göstərilir və nəticələr də göz qabağındadır. Qısa müddət ərzində pambıqçılığın sürətli inkişafına nail ola bilmişik. Demək olar ki, biz pambıqçılığı Azərbaycanda bərpa edirik.

1970-1980-ci illərdə Bərdə Azərbaycanın ən çox pambıq tədarük edən rayonlarından biri idi. Bərdəlilər yaxşı bilirlər ki, Ulu Öndər Heydər Əliyev bu sahəyə çox ciddi diqqət göstərirdi və dəfələrlə Bərdədə olmuşdur. Bərdədə pambıqçılıqla bağlı dəfələrlə zona müşavirələri keçirilmişdir. O illərdə Bərdədə pambığın tədarükü 120 min tona çatmışdır.

Bərdə uğurla inkişaf edir. Mən Prezident kimi dəfələrlə Bərdə rayonunda olmuşam. Bu, mənim Prezident kimi Bərdəyə altıncı səfərimdir. Bütün səfərlərdə verilən tapşırıqlar və onların icrası nəticəsində biz Bərdə rayonunda çox ciddi sosial-iqtisadi inkişafa nail ola bilmişik.



Qeyd etdiyim kimi, 1970-ci illərdə Azərbaycanda pambıqçılığın sürətli inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. O, 1969-cu ildə hakimiyyətə gələndə Azərbaycanda 300 min ton pambıq tədarük edilirdi. Onun dövründə bu rəqəm 3 dəfə artmışdır və 1981-ci ildə Azərbaycanda bir milyon ton pambıq yığılmışdır. Heydər Əliyev Azərbaycandan gedəndən sonra hər bir sahədə olduğu kimi, pambıqçılıqda da tənəzzül yaşandı və 1990-cı ildə Azərbaycanda pambığın tədarükü bir milyondan 500 min tona düşmüşdür. Müstəqillik dövründə isə pambıqçılıq demək olar ki, məhv olub gedirdi. Bunun bir neçə səbəbi var. Əlbəttə, onu etiraf etməliyik ki, müstəqilliyimizin ilk illərində bizim ciddi maddi imkanlarımız yox idi. Azərbaycan çox ağır vəziyyətdə idi. Xüsusilə, antimilli hakimiyyət – AXC-Müsavat cütlüyünün yaratmaz və xəyanətkar fəaliyyəti nəticəsində ölkəmiz demək olar ki, dağılırdı.

Yalnız 1993-cü ildən sonra - xalq Ulu Öndərə üz tutaraq onu hakimiyyətə dəvət edəndən sonra bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da inkişaf dövrü başlamış, islahatlar aparılmışdır. Hesab edirəm ki, o vaxt kənd təsərrüfatının inkişafı ilə bağlı ən önəmli qərar kənd təsərrüfatında işləyənlərin vergilərdən azad edilməsi idi.

Biz ciddi şəkildə bazar iqtisadiyyatına keçidə başlamışdıq və hesab edirdik ki, bazar iqtisadiyyatı hər şeyi özü tənzimləyəcək. O cümlədən, kənd təsərrüfatı ilə bağlı olan məsələləri bazar iqtisadiyyatı prinsipləri tənzimləyəcək və həll edəcək. Əlbəttə ki, bu yanaşmada böyük həqiqət var, amma, eyni zamanda, pambıqçılığın tənəzzülə uğramasının timsalında biz bunu görürük, əgər ciddi dövlət dəstəyi olmasa, kənd təsərrüfatı inkişaf edə bilməz. Nəinki Azərbaycanda, bütün başqa ölkələrdə.

Statistik göstəricilərə baxmaq kifayətdir görək ki, 2015-ci il pambıqçılıq tarixində ən acınacaqlı il olmuşdur. Cəmi 18 min hektarda pambıq əkilmişdir və cəmi 35 min ton pambıq tədarük edilmişdir.

2015-ci ilin sonlarından etibarən biz bu məsələ ilə ciddi məşğul olmağa başladıq. Qeyd etdiyim kimi, 2016-2017-ci illərdə müşavirələr keçirildi. 2017-ci ildə pambıqçılığın inkişafı ilə bağlı Dövlət Proqramı qəbul edildi, biz bu işlərlə planlı şəkildə məşğul olmağa başladıq və bu gün gözəl nəticələr haqqında danışa bilərik. İki il ərzində Azərbaycanda pambığın tədarükü 35 min tondan 207 min tona çatmışdır. Yəni, biz iki il ərzində pambığın yığımını altı dəfə artıra bilmişik. Bu da son hədd deyil.

Pambıqçılıq əmək tutumlu sahədir. Biz pambıqçılığın inkişafı ilə bağlı, eyni zamanda, on minlərlə yeni iş yeri yaratdıq. Bütövlükdə son illərdə pambıqçılıqla məşğul olan insanların sayı 200 minə yaxınlaşır. Bu insanların böyük əksəriyyəti işləmirdi, ancaq bu gün işlə təmin olunurlar. Əlbəttə ki, bu, xüsusən bölgələrdə işsizliyin aradan qaldırılması istiqamətində çox ciddi sosial sahədir. Mən əvvəlki çıxışlarımda da bunu qeyd etmişəm, bu gün də qeyd etmək istəyirəm, bizim üçün pambıqçılığın inkişafında əldə edilmiş nəticələr arasında məhz sosial amil ön plandadır. İş yerlərinin yaradılması əsas vəzifəmizdir, biz buna da nail ola bilmişik.

Bugünkü müşavirədə həm görülmüş işlərlə bağlı məlumatlar səslənəcək, həm də görüləcək işlərdən danışacağıq. Qeyd etməliyəm ki, növbəti illərdə bizim əsas vəzifəmiz məhsuldarlığı artırmaq olacaq. Çünki keçən ilin təcrübəsi göstərir ki, böyük irəliləyiş var.

*****

Sonra Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev, "MKT İstehsalat Kommersiya" Məhdud Məsuliyyətli Cəmiyyətin baş direktorunun müavini Rövşən Həsənov, Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Biləsuvar rayonundan fermer Fazil Musayev, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov, "Azərpambıq" Məhdud Məsuliyyətli Cəmiyyətin baş direktor əvəzi Zakir Əzimov, Saatlı rayonundan fermer Nizami Məmmədov, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Əhməd Əhmədzadə çıxış etdilər.

Prezident İlham Əliyev müşavirədə yekun nitqi söylədi.

Daha sonra "Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı oxundu.

Prezident İlham Əliyev fermerlər Fatma Hüseynovaya, Tofiq İsmayılova və Fazil Musayevə 1-ci dərəcəli "Əmək" ordenlərini təqdim etdi.

## DAXİLİ İŞLƏR NAZİRİ GENERAL-POLKOVNİK RAMİL USUBOV NOVRUZ BAYRAMININ İLK GÜNÜNDƏ ƏSGƏRLƏRLƏ BİRLİKDƏ NAHAR ETDİ

**Martın 20-də Azərbaycan Respublikasının Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov Daxili Qoşunların Bakıda yerləşən "N" saylı hərbi hissəsində olub.**



Novruz bayramı münasibətilə əsgər və zabitləri təbrik edən nazir, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində Daxili Qoşunların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirildiyini, nəinki paytaxtda, eləcə də regionlarda yerləşən hərbi hissələrdə geniş abadlıq və quruculuq işlərinin aparıldığını, müxtəlif təyinatlı obyektlərin, o cümlədən yeni hərbi şəhərciklərin, əsgər kazarmalarının tikildiyini, zabitlər, gizirlər üçün hər bir şəraitə malik yaşayış komplekslərinin istifadəyə verildiyini nəzərə çatdırıb.



Sonra nazir şəxsi heyətin kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu və təminat-təchizatı ilə yaxından tanış olub, ərazidə aparılan quruculuq-abadlıq işləri ilə maraqlanıb.

Daxili İşlər Naziri Ramil Usubov və nazir müavini - Daxili Qoşunların Komandanı Şahin Məmmədov hərbi hissənin yeməkxanasında bayram süfrəsində əsgərlərlə birlikdə nahar ediblər.

**DİN-in Mətbuat xidməti**

## DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ BİR QRUP HƏRBİ QULLUQÇUYA MÜKAFATLARIN TƏQDİMOLUNMA MƏRASİMİ KEÇİRİLİB

**Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 26-cı ildönümü münasibətilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə qoşunların bir qrup hərbi qulluqçusu mükafatlandırılıb. Bu münasibətlə martın 19-da Daxili Qoşunların Baş İdarəsində mükafatların təqdimolunma mərasimi keçirilib.**

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Nümunəvi Göstərici Hərbi Orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Sonra Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov mükafatları şəhid hərbi qulluqçuların ailə üzvlərinə və hərbi qulluqçulara təqdim edib.

Ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif olunan şəhid hərbi qulluqçular leytenant Yusif Qasımovun anası Xanım Qasımova, əsgər Vüqar Abutalıbovun atası Elman Abutalıbov şəhid ailələrinə yüksək dövlət qayğısı göstərildiyinə görə Respublika Prezidentinə və Daxili İşlər Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildirərək, Daxili Qoşunların şəxsi heyətinə xidmətdə uğurlar arzulayıblar.

Daha sonra "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunan və "Əməkdar həkim" fəxri adı verilmiş hərbi qulluqçulara mükafatlar təqdim olunub.

Tədbirin sonunda çıxış edən



general-leytenant Ş.Məmmədov təltif olunan şəhid ailələrinin üzvlərini və hərbi qulluqçuları təbrik edərək, onların mükafatlandırılmasının Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara olan diqqətinin təzahürü olduğunu qeyd edib. Daxili Qoşunlar Komandanı əminliklə bildirib ki, şəxsi heyət bundan sonra da göstərilən etimadı doğruldacaq, qanunla müəyyən edilmiş vəzifələri və qarşıya qoyulmuş tapşırıqları layiqincə yerinə yetirəcək.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin 9 mart 2018-ci il tarixli Sərəncamı ilə ümumilikdə, Daxili



Qoşunların hərbi qulluqçularından 2 nəfər "İgidliyə görə" (ölümündən sonra), 14 nəfər "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib, 1 nəfər hərbi qulluqçuya "Əməkdar həkim" fəxri adı verilib.

**Mətbuat xidməti**

# DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ - DAXİLİ QOŞUNLARIN KOMANDANI GENERAL-LEYTENANT ŞAHİN MƏMMƏDOV BELARUS DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ YARANMASININ 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ İŞTİRAK EDİB



***Martın 15-dən başlayan rəsmi səfər çərçivəsində Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Belarus Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 100 illiyinə həsr olunmuş tədbirdə iştirak edib. Tədbirdə Azərbaycanla yanaşı, Rusiya Federasiyası, Çin Xalq Respublikası və Qazaxıstan Respublikasının müvafiq qurumlarının nümayəndə heyətləri də olublar.***

Martın 16-da Belarus Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Yuriy Karayev adıçəkilən ölkələrin nümayəndə heyətlərini tarixi Ratuşa binasında qəbul edib. Görüşdə general-mayor Y.Karayev ötən illər ərzində qurumlar arasındakı qarşılıqlı səfərlərdən, əlaqələrdən söz açaraq, bunun birgə əməkdaşlığın möhkəmlənməsi işinə təkan verəcəyini vurğulayıb.

Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Ş.Məmmədov öz növbəsində qeyd edib ki, son illər beynəlxalq hərbi əməkdaşlıq üzrə Azərbaycan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının və Belarus Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının nümayəndə heyətlərinin qarşılıqlı səfərləri reallaşdırılıb. Qarşılıqlı səfərlərin, görüşlərin intensiv xarakter aldığını deyən Azərbaycan nümayəndə heyətinin rəhbəri diqqətə çatdırıb ki, bütün bunlar iki qurum arasında qarşılıqlı təcrübə mübadiləsinin, o cümlədən gələcək əməkdaşlığın perspektivlərini müəyyənləşdirir.

Görüşün sonunda nümayəndə heyətlərinin üzvləri "Belarus Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 100 illiyi" medalı ilə təltif olunublar.

Həmin gün qonaq qismində dəvət olunmuş ölkələrin nümayəndələri Respublika Sarayında təşkil olunmuş yubiley konsertində iştirak ediblər.

Azərbaycan nümayəndə heyəti səfər proqramına uyğun olaraq, martın 17-də Minsk şəhərinin ətrafında yerləşən "Stalin Cəbhəsi" muzey-kompleksi ilə tanış olub. Burada qonaqlara Belarus Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının yaranmasının 100 illik tarixinin müxtəlif dövrlərini əks etdirən döyüş səhnələri nümayiş etdirilib.

Martın 18-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının Belarusa rəsmi səfəri başa çatıb.

**Mətbuat xidməti**

# HƏRBİ HİSSƏMİZDƏ NOVRUZ ŞƏNLİYİ QEYD OLUNUB

***Bayram tədbirində Sumqayıt şəhər Hərbi Prokurorluğunun nümayəndələri iştirak edib***

***Martın 16-da 16075 saylı hərbi hissədə birgə tədbirlər planına əsasən Sumqayıt şəhər Hərbi Prokurorluğunun əməkdaşlarının iştirakı ilə Novruz bayramına həsr olunmuş tədbir keçirilib. Şəxsi heyətdə ruh yüksəkliyinin artırılması məqsədilə təşkil olunmuş mərasimdə Sumqayıt şəhərinin hərbi prokuroru ədliyyə polkovniki Zöhrab Kazımov, Daxili Qoşunların Veteranlar Şurasının sədri, ehtiyatda olan polkovnik Çingiz Daşdəmirov və hərbi prokurorun müavini ədliyyə polkovnik-leytenantı Azər Qasımov qonaq qismində iştirak edirdilər.***

Mərasimi giriş sözü ilə açan hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Məzahir Seyidov qonaqları və şəxsi heyəti gözəl el bayramı münasibətilə təbrik etdi.

Tədbirə başlamazdan əvvəl Azərbaycan xalqının Milli Lideri Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş, xidməti-döyüş tapşırığını yerinə yetirərkən həlak olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Ardınca Novruz bayramı və milli adət-ənənələrimizi tərənnüm edən sənədli film nümayiş olundu. Azərbaycan Respublikası Baş prokurorunun müavini - Respublikanın Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyevin bayram münasibətilə hərbi hissənin şəxsi heyətinə ünvanlanmış təbrikini çatdırmaq üçün söz ədliyyə polkovniki Z.Kazımova verildi. O, hissənin şəxsi heyətini salamlayaraq, hər bir əsgərə Vətənə layiq, dövlət və dövlətçiliyimizə sədaqətli hərbi qulluqçu olmağı arzuladı. Çıxışını qonaqlara ünvanlanmış bayram təbrikilə davam etdirən hörmətli prokuror bu gün dövlətimizin inkişaf istiqamətlərinin, rifah halının yüksəlməsinin Milli Lider Heydər Əliyevin adıyla bağlı olduğunu diqqətə çatdırdı. O, dünya miqyasında ölkəmizin tanınmasını təmin edən dahi şəxsiyyətin Azərbaycan xalqının ürəyində, yaddaşında silinməz iz buraxdığını, xalqına sadiq rəhbər kimi qəlblərdə daim yaşayacağını sözlərinə əlavə etdi. Bu gün respublikamızın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı sayəsində gündən-günə güclənən Daxili Qoşunların ictimai sabitliyin təmin olunmasında göstərdiyi layiqli xidmətini qeyd edərək, bu qurumda komandirlərlə şəxsi heyət arasındakı münasibətlərin düzgün tənzimləndiyini bildirdi.

Bayram tədbirində iştirak edən Daxili Qoşunların Veteranlar Şurasının sədri, ehtiyatda olan polkovnik Ç.Daşdəmirov da səmimi arzularını, tövsiyələrini hərbi qulluqçulara çatdırdı. Bu bayramın keçirilməsinin xalqımıza vaxtilə yasaq olunduğunu, lakin uzun zaman kəsiyində Novruz ənənələrinin heç bir zaman unudulmadığını və müasir dövrdə yüksək səviyyədə qeyd olunduğunu sevindirici hal kimi qiymətləndirdi.



Daha sonra xidməti vəzifə borclarının icrasına layiqincə yanaşdıqlarına, şəxsi nümunə, yüksək hərbi intizam nümayiş etdirdiklərinə, eləcə də Novruz bayramı münasibətilə bir qrup hərbi qulluqçu "Qiymətli hədiyyə" ilə mükafatlandırıldı.

Bayram tədbiri Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin konsert proqramı ilə davam etdirildi.

Həmin gün qonaqlar bayram süfrəsi arxasında əsgərlərlə birlikdə nahar etdilər.

**leytenant N.Ağayeva**





# AYIQ-SAYIQ HƏRBİ QULLUQÇULARIMIZLA FƏXR EDİRİK!

***Həvalə olunmuş obyektlərin mühafizəsinə cəlb olunmuş hərbi qulluqçularımızın postda xidmət apararkən ayıq-sayıqlıq nümayiş etdirmələri barədə dəfələrlə məlumatlar dərc etmişik.***

Növbəti xəbərimiz də Daxili Qoşunların 16076 saylı hərbi hissəsinin hərbi qulluqçularının xidməti ilə əlaqədardır.

Saatdar - əsgər Mircəlal Salahlı mühafizə olunan inzibati bina üzrə təyin olunmuş qarovulda xidmət apararkən saat 00:35 radələrində postun qadağan olunan sahəsinə yaxınlaşaraq özünü yandırmağa cəhd edən vətəndaşı xəbərdar etsə də, o, verilən komandaya əhəmiyyət verməyib. Bu barədə əsgər M.Salahlı dərhal qarovul rəisi gizir Baha - dur Abbaszadəyə məlumat verib.

Gizir B.Abbaszadə tərəfindən qanuna müvafiq tədbirlər görülərək, vətəndaş Daxili İşlər Nazirliyinin komendant xidmətinin polis əməkdaşlarına təhvil verilib.

Hərbi qulluqçular hissə komandirinin müvafiq əmri ilə mükafatlandırılıblar.

**baş leytenant X.Hacızadə**

*istedadlı hərbi qulluqçularımız...*

# DÜNYAMSAN, VƏTƏN!

**Çavuş Vüsal Dadaşov 67987 saylı hərbi hissənin həm nizam-intizamlı, bacarıqlı, həm də istedadlı hərbi qulluqçularındandır. O, 1988-ci il iyulun 11-də Xaçmaz şəhərində anadan olub. Orta təhsilini doğulduğu Xaçmaz şəhərində yerləşən 1 saylı tam orta məktəbdə alıb. 2006-2008-ci illərdə Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Mühafizə Alayında müddətli həqiqi hərbi xidmət keçib. Xidmətini başa vurduqdan sonra 2008-ci ildən 2012-ci ilədək Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin Xaçmaz Rayon Mühafizə Bölməsində mühafizə polis əməkdaşı olub.**

**2012-ci ildən Daxili Qoşunların 67987 saylı hərbi hissəsində xidmət edir. Vəzifələrinin öhdəsindən layiqincə gəlir. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.**



Nümunəvi hərbi qulluqçu olmaqla bərabər, istedadı ilə də seçilən çavuş V.Dadaşov asudə vaxtlarında müxtəlif mövzu - larda şeir və kiçik həcmli esselərini "Yurdoğlu" təxəllüsü ilə yazır. Bir sıra ədəbi dərnəklərin - Dünya Gənc Türk Yazarlar Birli - yinin (DGTYB), "Məcməüş-şüəra"nın və Əliağa Vahid adına "Vahid poeziya məc - lisi"nin üzvü, Azərbaycan Yazıçılar Birliyi 3-cü Gənc Ədiblər Məktəbinin məzunudur. Həmçinin, 2015-2016-cı illərdə Azərbaycan Yaradıcılıq Fondunun nəzdində Bakı Slavyan Universitetinin Yaradıcılıq Fakültəsində də ədəbi təhsil alıb. Bu illər ərzində aldığı ustad dərsləri, görüşdüyü ədiblərlə etdiyi söhbətlər ona böyük təcrübə qazandırıb. Ədəbiyyatımızın görkəmli nümayəndələrindən - xalq yazıçısı Anar, istedadlı şair Ramiz Rövşən, Nazim Əhmədlidən, o cümlədən bir sıra xarici ölkələrin ədiblərindən öyrəndikləri bu gün də bədii yaradıcılığını inkişaf etdirməsində mühüm rol oynayır. Vətənə olan dərin məhəbbətinin tərənnümü olaraq, yaradıcılığında əsasən vətənpərvərlik mövzusunda yazdığı şeirlərə üstünlük verir.

Hərbi qulluqçumuzun bir çox şeirləri bir sıra qəzet və jurnallarda, müxtəlif almanaxlar və toplularda, eləcə də ədəbi portallarda da işıq üzü görüb. Belə ki, 2015-ci ildə Dünya Gənc Türk Yazarlar Birliyi və Azərbaycan Respublikası Prezidenti yanında Gənclərə Yardım Fondunun dəstəyi ilə nəşr edilən "Səs... Söz... Rəng..." kitabında bir, 2017-ci ildə çap olunan "Bölgələrdən səslər-3" adlı topluda isə üç şeiri yer alıb. Azəbaycan Yazıçılar Birliyinin, Azərbaycan Respublikası Heydər Əliyev Fondunun dəstəyi ilə Qəbələ şəhərində işıq üzü görən "Gənc yazarların vətənpərvərlik mövzusunda şeirlər toplusu"nda da bir şeiri nəşr olunub. Bundan başqa, yaxın bir neçə ay ərzində onun "Mən möcüzə gözləyirəm" adlı şeirlər və esselər kitabı işıq üzü görəcəkdir.

Bədii ədəbiyyata böyük marağı və həvəsi olsa da, bir hərbi qulluqçu kimi o, vəzifələrinin icrasına da olduqca məsuliyyətlə yanaşır.

Nümunəvi hərbi qulluqçumuza həm gələcək xidmətində, həm də yaradıcılıq fəaliyyətində uğurlar arzulayır və vətənpərvərlik mövzusunda yazdığı şeirlərindən birini təqdim edirik:

**DÜNYAMSAN, VƏTƏN!**

Ayrı bir dünyanın insanıyam mən,
Dünyama heyranam, dünyamsan, Vətən!
Sevirəm mən səni öz anam kimi,
Uğrunda bularam qana əlimi...
Uğrunda hər şeyə hazıram, hazır!
Qələmim hərbçi ömrünü yazır...

Gəlirəm, ey Vətən, gəlirəm sənə!
Qorumaq borcumu ödəmək üçün,
Canımı, cüssəmi verirəm sənə!…
Bülbül xarabada oxumaz, susar…
Mənim də ürəyim bülbülə dönmüş,
Həsrətin içimdə necə yetişmiş,
Havana, suyuna ehtiyacı var…
Sınmaz qürurumun sənin yolunda
Savaşmaqdan başqa nə əlacı var?!

Ölümlər, zülmlər, bu da dünyamız,
Haqlını, haqsızı tanımır nədir?!…
Vətənə verilən şəhid balamız,
Axı nə vaxtacan gözləyəcəkdir?…
Səpilsin yoluna odlu mərmilər,
Qurtarsın bu savaş, nahaq ölümlər!
Sülhdən qan qoxusu gələrmi? -Gəlməz!
Erməni qozbeldir, sülhlə düzəlməz!

"Azadlıq! Azadlıq!" - deyən, eşidən,
Hər yerdə səsini duyduran dövlət,-
-Eşqim, qibləgahım, - Azərbaycanım!
İgidlər, ərənlər yetişdirən el,
Ürəklər içində var olan Vətən!
Oğluna, qızına yar olan Vətən!
Yaşa, daim yaşa, var ol, var ol sən!

Üstünə uzanan əlləri qıraq,
Neftinə dikilən gözlər çıxacaq…
Min arzu düşəcək təmiz qəlblərdən,
Qarabağ saçlarda dən olmayacaq,
Sənsiz yaşanacaq gün olmayacaq!
Əllər oxuyacaq zəfər nəğməsi,
Gələcək yaylaqdan tütəyin səsi…
Xoşbəxt günlərinə tələsirəm mən,
Könlüm qanadlanır yurd sevgisindən!
Sənsən qürurumun yüksək nöqtəsi,
Ulu Odlar yurdu, Odlar ölkəsi!
Yurdoğlu iftixar duyur adınla,
Alışır daima sənin odunla.
Sinəndə quracaq alınmaz qala,
Vətənin ər oğlu, ər hərbçisi!

**baş leytenant X.Hacızadə**

3_Layout 1 30.03.2018 8:41 Page 1



## ŞƏHİDLƏRİMİZ

# BARIT QOXULU YOLLARDAN BİR İGİD KEÇDİ...



QASIMOV YUSİF TELMAN OĞLU

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının müharibədən geri dönməyən igid hərbi qulluqçularından biri də leytenant Qasımov Yusif Telman oğludur. O, 1968-ci il avqustun 13-də Gəncə şəhərində doğulub. Qasımovlar ailəsinin böyük övladı idi. Bu ailədə iki oğul, iki qız övladı dünyaya göz açıb. Yusif Qasımov Gəncədəki 18 saylı orta ümumtəhsil məktəbində oxuyub. 1983-1985-ci illərdə məktəbdəki təhsildən ayrılmadan Gəncə şəhəri məktəblərarası tədris-istehsalat kombinatının avtomobil çilingəri kursunda bu ixtisasa yiyələnib. O, həmçinin, həmin vaxt fəaliyyət göstərmiş "Dinamo" Bədən Tərbiyəsi və İdman Cəmiyyətində əlbəyaxa idman növləri ilə məşğul olub, öz məharəti sayəsində müvafiq idman dərəcəsi də qazanıb.

1985-ci ildə orta təhsilini başa vurduqdan sonra bir müddət Gəncədəki tekstil fabrikində işləyib. Böyük övlad kimi ailəyə maddi köməklik göstərməyə çalışıb.

Onun peşə seçiminə təsir göstərən əsas amillər arasında vətənpərvər ruhda tərbiyə olunması, mübarizliyi, hərbi qulluqçulara rəğbəti və yeniyetmə yaşlarından hərbi xidmətə marağını xüsusi qeyd etmək olar.

1986-cı ildə Y.Qasımov Rusiya Federasiyasının Orconikidze şəhərindəki (hazırda Vladiqafqaz) SSRİ Daxili İşlər Nazirliyinin S.M.Kirov adına Ali Hərbi Komandanlıq Məktəbinə (SSRİ dağıldıqdan sonra RF Şimali Qafqaz Hərbi İnstitutu kimi fəaliyyət göstərib) qəbul olunub. Beləliklə, o, hərbi xidmət yolunda ilk addımını atıb. Kursant həyatında hərb elminin sirlərini mənimsəməklə yanaşı, gərgin məqamlarla da qarşılaşıb. Belə ki, 1988-ci ildə Sumqayıtda, 1989-1990-cı illərdə Özbəkistan və Qırğızıstan ərazisində məkrli təxribatların nəticəsi kimi millətlərarası münaqişə zəminində baş vermiş hadisələr zamanı ictimai təhlükəsizliyin, əmin-amanlığın bərpa olunması üzrə xidmətin aparılmasında onun təhsil aldığı Hərbi Məktəbin kursantları da iştirak ediblər. Sumqayıtda ictimai asayişin keşiyində fəaliyyəti qiymətləndirilərək, Sumqayıt Şəhər Komsomol Komitəsinin fərmanı ilə mükafatlandırılıb.

1988-ci ildə atası Telman Qasımovun qəfil ürək tutmasından vəfat etməsi bütün ailə üzvləri kimi, Yusifi də dərindən sarsıdıb. Bu sarsıntıya baxmayaraq, iradəsini toparlayaraq 1990-cı ildə Hərbi Məktəbi bitirib. Ona " leytenant" hərbi rütbəsi verilib. Ailə vəziyyəti nəzərə alınaraq, o, təyinatla respublikamıza, öz doğma şəhərinə göndərilib. Həmin vaxt SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 5477 saylı (hazırda 17072 saylı hərbi hissə) hərbi hissəsində hərbi xidmətə başlayıb. Peşəkar zabit olaraq hərbi hissədə üzərinə düşən xidməti vəzifələri vicdanla yerinə yetirib. Qısa vaxtda şəxsi heyət arasında hörmət qazanıb. 5477 saylı hərbi hissə komandiri tərəfindən təsdiq edilmiş xidməti xasiyyətnamə ilə tanış oldum. Xidməti xasiyyətnamədə onun zabit kimi müsbət fərdi keyfiyyətləri göstərilib. Diqqətəlayiq qeydlərdən biri onun respublikamızın sərhədyanı rayonlarında ictimai təhlükəsizliyin qorunmasında layiqincə iştirakı və bu zaman tabeliyindəki şəxsi heyət arasında itkiyə yol verməməsi haqqındadır.

Həqiqətən də Çaykənd (hazırkı Göygöl rayonu ərazisindədir) və ətraf yaşayış məntəqələrində, habelə Qazax rayonunun Ermənistanla həmsərhəd bölgəsində keçirilən xüsusi əməliyyatlarda o, komandir qətiyyəti və cəsarəti, ekstremal şəraitdə özünü itirmədən qərar qəbul etmək bacarığı ilə fərqlənib. Bu xüsusi əməliyyatlar zamanı o, hətta yaralanıb və bunu ailəsindən gizli saxlamaq istəyib.

1991-ci ilin dekabr ayında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının formalaşmasına başlanarkən leytenant Y.Qasımov onun sıralarına qəbul olunan ilk zabitlərdən biri idi. Beləliklə, 5477 saylı hərbi hissə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sərəncamına keçib. Leytenant Y.Qasımov xidmət etdiyi hərbi hissənin şəxsi heyəti sırasında hərbi xidmətə başlayan gənclərimizin yüksək mənəvi-psixoloji və döyüş hazırlığı yönündə öz zəhmətini əsirgəməyib.

1992-ci ilin mart ayının 12-dən etibarən Daxili Qoşunlar erməni işğalçılarına qarşı döyüşlərə başlamışdı. 5477 saylı hərbi hissənin şəxsi heyəti də 1992-ci ilin martından sonra ön cəbhədə döyüş əməliyyatlarına cəlb olunurdu. Leytenant Y.Qasımov 5477 saylı hərbi hissənin şəxsi heyətinin tərkibində Tərtər, Kəlbəcər və Ağdərə döyüş bölgəsində torpaqlarımızın müdafiəsində dayanıb, mənfur düşmənə qarşı igidliklə vuruşub. Döyüşlərdə özü və rəhbərlik etdiyi şəxsi heyət tərəfindən düşmənin xeyli canlı qüvvəsi məhv edilib, mühüm ərazilərdə atəş nöqtələri sıradan çıxarılıb. O, komandanlıq tərəfindən qarşıya qoyulan mürəkkəb döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəlib.

1992-ci ilin iyul ayının 19-da Ağdərə döyüş zonasındakı Aterk ( Həsənriz) kəndi uğrunda döyüşdə leytenant Y.Qasımov itkin düşüb. Həmin qanlı, qeyri-bərabər, bir sıra təfsilatları bu günədək qaranlıq qalan döyüşdə 5477 saylı hərbi hissənin onlarla hərbi qulluqçusu hər tərəfdən düşmənin atəş zərbəsinə məruz qalıb və köməksiz vəziyyətdə son nəfəslərinədək vuruşublar. Bir neçə gün ərzində həmin hərbi qulluqçuların taleyi ilə bağlı qeyri-müəyyənlik davam edib. Aterkə (Həsənriz) növbəti hücum zamanı onlarla hərbi qulluqçumuzun yandırılmış meyitlərinin qalıqları tapılıb. Həmin meyitlərin qalıqları Bakıya gətirilərək Şəhidlər Xiyabanında qardaşlıq məzarında dəfn olunub. Qardaşlıq məzarı üzərindəki mərmər lövhəyə adları həkk olunan hərbi qulluqçuların siyahısında leytenant Y.Qasımovun da adı var. Ailəsi uzun illər müharibə itkini kimi onun yolunu gözləyib, ümidlə yaşayıb. Yusifin anası Xanım Qasımova fədakar azərbaycanlı qadının canlı təcəssümüdür. Məhz Vətəninə, xalqına ürəkdən bağlı olan Xanım ana kimi bir valideyn Yusif kimi qeyrətli oğul yetişdirə bilərdi. Xanım ana 1992-ci ildən 2006-cı ilin 17 aprel tarixinədək oğlunun adının önündə şəhid sözü yazılmasına razı olmayıb. Ancaq bu qeyri-müəyyənliyin sonsuzadək davam etməsi ilə də barışmayıb. Oğlunun xatirəsini əziz və uca tutaraq, onun döyüş yoluna ehtiram göstərərək, Gəncə Şəhər Kəpəz Rayon Məhkəməsinə müraciət edib. Məhkəmənin 17 aprel 2006-cı il tarixli qətnaməsi ilə leytenant Y.Qasımov Qarabağ uğrunda gedən döyüşlərdə ölmüş elan edilib. Ailəyə dövlətimiz tərəfindən müvafiq müavinət təyin olunub.

***Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında" 9 mart 2018-ci il tarixli Sərəncamı ilə dövlətimizin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiyinə, döyüş zamanı igidlik göstərdiyinə görə leytenant Qasımov Yusif Telman oğlu ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.***

Şəhid zabitin adını bacısı nəvəsi daşıyır. O,bu adla həmişə qürur duyacaq. Milli şərəfimiz, torpaqlarımızın toxunulmazlığı və bütövlüyü naminə son damla qanınadək vuruşmuş qorxmaz oğulların döyüş yolu hər birimiz üçün əvəzsiz örnəkdir.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# TAPŞIRIQLARIN MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRİLMƏSİNDƏ ƏLİNDƏN GƏLƏNİ ƏSİRGƏMİR

Çavuş Ülviyyə Mamedova 99713 saylı hərbi hissənin bacarığı, intizamına görə fərqlənən qadın hərbi qulluqçularından biridir. O, 1981-ci il sentyabrın 4-də Balakən rayonunda dünyaya gəlib. 1998-ci ildə böyüyüb boya-başa çatdığı kənddə orta məktəbi bitirib. Orta təhsillidir. Hələ uşaqlıq illərindən qadın hərbi qulluqçularına həsədlə baxan Ülviyyə qəlbinin dərinliyində özünün də nə zamansa hərbçi olacağına inanırdı. Elə bu arzu, bu istəklə də 2006-cı il aprelin 6-da Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub.

Artıq 12 ildir ki, MTT xidmətlərində əşya xidmətinin kargüzarı vəzifəsini icra edən qadın hərbi qulluqçu öz işinə bağlı bir insandır. Xidmətini Daxili İşlər Nazirinin və Daxili Qoşunlar



Komandanının müvafiq əmrlərinin tələblərinə əsasən quran çavuş Ü.Mamedova xidmət üzrə maddi vəsaitlərin və təminatda duran şəxsi heyətin əmlakının uçotuna ciddi nəzarət edir.

Qeydiyyat blanklarının və sənədlərinin qorunub saxlanılmasına, anbardan maddi vəsaitlərin buraxılması üzrə sənədlərin düzgün tərtib edilməsinə, habelə anbara daxil olmuş maddi vəsaitlərin uçot kitablarına vaxtlı-vaxtında mədaxil edilməsinə nəzarət edir. Uçot kitablarında olan maddi vəsaitlərin qalıqlarını anbar və bölmələrin uçot məlumatları ilə müntəzəm olaraq tutuşdurur. Təyin olunmuş müddətlərə xidmət üzrə hesabatlar üçün məlumatların hazırlanmasını təmin edir, xidmət rəisinin göstərişləri əsasında mədaxil və məxaric sənədlərini tərtib edir. Peşəkarlıq vərdişlərini təkmilləşdirmək üçün daim öz üzərində çalışan hərbi qulluqçu Daxili Qoşunlarda xidmətilə qürur duyur. Nümunəvi xidmətinə görə dəfələrlə hərbi hissə komandiri tərəfindən müxtəlif mükafatlara layiq görülüb.

Təcrübəli hərbçi kimi xidmətə yeni qəbul olunmuş xanımlara köməklik göstərir, hərbi intizamın möhkəmləndirilməsində, xidməti-döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsində əlindən gələni əsirgəmir.

**leytenant N.Ağayeva**

# NÜMUNƏVİ VƏ YARADICI ƏSGƏRLƏRİMİZ



25033 saylı hərbi hissənin patrul bölüyündə hərbi xidmətdə olan əsgər Şəmsəddin Əsgərov 1995-ci ildə Yevlax rayonunun Malbinəsi kəndində doğulub. Gəncə Dövlət Universitetinin Filologiya fakültəsinin məzunudur. 2017-ci ilin iyul ayından Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarındadır. O, hərbi xidmət borcunu vicdanla yerinə yetirir. Döyüş və ictimai-siyasi hazırlığında çalışqanlığı ilə fərqlənir. Əsgər yoldaşları arasında özünə hörmət qazanıb. Komandirləri onun nizam-intizamını və icraçılığını müsbət xarakterizə edirlər. Əsgər Ş.Əsgərov həm də bədii yaradıcılıqla məşğul olur, vətənpərvərlik mövzusunda şeirlər yazır. İstedadlı hərbi qulluqçumuzun ötən il nəsr əsəri də ərsəyə gəlib. Onun qələmə aldığı "Mərd oğullar" şeirinin hər bir misrası döyüş ruhu aşılayır.

**Mərd oğullar**

Hərbi andı içərək
Məqsədimiz var bizim.
Qarabağımız gözləyir,
Niyyətimiz var bizim.
Azərbaycan torpağı
İşğalda qala bilməz!
Mərd oğullar əlindən
Düşmənlər qaça bilməz.
Bir gün vaxt gələr,
Deyərik sözümüzü,
O mənfur düşmənlərə
Göstərərik gücümüzü.
Xalq birlikdə İlhamla
İrəli addımlayacaq.
Vaxt gələcək bayrağımız
Qarabağda dalğalanacaq!

25033 saylı hərbi hissənin patrul bölüyündə xidmət edən əsgər Arzuman İmamverdiyevin bədii yaradıcılığı da diqqətəlayiqdir. O, 1999-cu ildə Bakı şəhərində doğulub. Ailəsi əslən Kəlbəcərdəndir və bu gün məcburi köçkün həyatını yaşayır. Arzuman Sumqayıt Dövlət Texniki Kollecinin Gömrük işi fakültəsinin məzunudur. 2017-ci ildən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarındadır. Hərbi xidmət vəzifələrinin yerinə yetirilməsinə əzmlə yanaşır. Təlimlərdə öz döyüş hazırlığının artırılmasına səy göstərir. Hərbi kollektivdə hörmət qazanıb. Komandirləri tərəfindən də fərdi keyfiyyətləri müsbət xarakterizə edilir.



**Kəlbəcər**

Gül bitirən yaylaqların,
Sərt daşıyam çaylaqların.
Dağındakı bulaqların,
Gözündənəm Kəlbəcərin.
Günəş kimi şəfəq saçan,
Zirvəsində güllər açan,
Cüyür, keçi, ceyran qaçan
Düzündənəm Kəlbəcərin.
Səmasında şahin süzən,
Belə dərdə varmı dözən?!
Gedib o yerlərdə gəzən
İzindənəm Kəlbəcərin.

**25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# 31 MART - AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ

***Hər il mart ayının 31-i respublikamızda Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur, erməni ideoloqlarının dövlət səviyyəsində dəstəklədikləri soyqırımı və terror siyasətinin günahsız qurbanlarının xatirəsi dərin ehtiramla yad edilir.***

***1918-ci ilin martında daşnak-bolşevik birləşmələrinin Azərbaycanın müxtəlif bölgələrində törətdikləri amansız qətliamların əsas məqsədi azərbaycanlıları milli etnos kimi yer üzündən silmək, onların tarixi torpaqlarına yiyələnmək idi.***

1918-ci ilin mart-aprel aylarında Azərbaycanın müxtəlif bölgələrində ən müxtəlif cinayətlərə rəvac vermiş erməni qəsbkarları soyqırımı və terroru dövlət siyasətinə çevirdiklərini bir daha təsdiqləmişlər.

Martın 30-dan aprelin 2-dək davam edən qırğınlarda Şamaxı qəzasının 53 müsəlman kəndində ermənilər tərəfindən 8027 azərbaycanlı qətlə yetirilmişdi. Quba qəzasında 162 kənd darmadağın edilmiş, 16 mindən çox insanın həyatına son qoyulmuşdu. Lənkəranda, Muğanda minlərlə soydaşımız öldürülmüşdü. Ermənilər tərəfindən Dağlıq Qarabağda 150 azərbaycanlı kəndi tamamilə dağıdılmış, Şuşada görünməmiş qırğınlar törədilmişdi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmiş, Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etmişdir. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırmış, bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradılmışdır. 1919 və 1920-ci illərdə mart ayının 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı prosesinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi olmuşdur. Lakin 70 illik sovet ideologiyasının tarixşünaslığımıza tətbiq etdiyi "vətəndaş müharibəsi", "əksinqilabi qiyam" kimi saxtalaşdırılan mart hadisələri, əslində, bolşevik-daşnak ittifaqının xalqımıza qarşı yeritdiyi növbəti soyqırımı siyasəti olmuşdur. Xalqımız bu gerçək tarixdən məlumatsız olmuş, saxta ideoloji ehkamlar və yalan tarix nəticəsində yaddaşımız uzun illər tamamilə yad istiqamətdə köklənmişdir. Halbuki 1918-ci il martın 31-də Bakı Kommunası və erməni şovinistləri Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırımına imza atmışdılar.

Bədnam erməni millətçilərinin tarixi saxtalaşdırmağa, dünya ictimaiyyətini çaşdırmağa yönəlmiş saxta kampaniyasına qarşı mütəşəkkil müqavimət isə yalnız Ulu Öndər Heydər Əliyevin xalqın istəyi ilə 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra mümkün olmuşdur. Heydər Əliyev Azərbaycan tarixinin faciəli, ağır, məşəqqətli səhifələri ilə xüsusən də gənclərin yaxından tanış olmalarını, milli həqiqətləri aydın dərk etmələrini, belə demək mümkünsə, qan yaddaşını qoruyub saxlamalarını zəruri hesab edirdi. Məhz buna görə də Milli Lider təkcə ümumtəhsil məktəblərində, universitetlərdə deyil, eləcə də ailədə gənclərlə fəal iş aparılmasını, onlarda erməni vandalizminin gerçək miqyası barədə dolğun, obyektiv rəyin formalaşmasını vacib sayırdı.

Tarixi unutqanlığın azərbaycanlılara hansı böyük faciələr bahasına başa gəldiyini ən müxtəlif çıxışlarında dəfələrlə vurğulayan Ulu Öndər Heydər Əliyev, eyni zamanda, gəncləri ata-babalarımızın bu səhvlərini yenidən təkrarlamamağa çağırırdı. Obyektiv reallığa əsaslanan bu çağırış həm də ona xidmət edirdi ki, gənclər müasir üsul və vasitələrdən, informasiya texnologiyalarının yaratdığı geniş imkanlardan istifadə edib milli həqiqətləri dünya ictimaiyyətinə çatdırsınlar. Bədnam erməni lobbisinə qarşı



mübarizədə fəal olsunlar və səmərəli əks-hücumu təşkil etsinlər. Yəni müdafiədən hücum taktikasına keçid məhz yeni dövrün müasir təfəkkürlü, yüksək intellektual imkanları ilə fərqlənən gənclərinin hesabına reallaşmalı idi. Heydər Əliyev bu məqsədi gerçəkləşdirmək üçün bir tərəfdən geniş təbliğat işi aparır, digər tərəfdən imzaladığı tarixi əhəmiyyətli fərman və sərəncamlar vasitəsilə gənclər arasında ideoloji-siyasi işi gücləndirirdi.

Milli Lider Heydər Əliyevin 1997-ci il 18 dekabr tarixli "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı ilə həmvətənlərimizin Qərbi Azərbaycandakı dədə-baba yurdlarından zorla köçürülməsi, Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasının hərtərəfli tədqiq edilməsi, Azərbaycan xalqına qarşı dövlət səviyyəsində həyata keçirilmiş bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması məqsədilə dövlət komissiyası yaradılmışdı.

Bundan bir müddət sonra 1998-ci il 26 mart tarixdə "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalayan Heydər Əliyev gənclərin tarixi həqiqətlərlə tanışlığına daha geniş meydan açmış, onları mübarizə ruhunda kökləmişdir. 1918-ci ilin məlum mart hadisələrinin 80-ci ildönümündə imzalanmış fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymətdir. Bu fərman gənc nəsildə milli yaddaşın qorunması baxımından, bir növ, proqram sənədidir. Fərmanda göstərilirdi ki, "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif olunmuş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir".

2003-cü ildən Azərbaycana inamla rəhbərlik edən dövlət başçısı cənab İlham Əliyev də uydurma erməni təbliğatının beynəlxalq səviyyədə ifşa edilməsini, həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasını ilk gündən Xarici İşlər Nazirliyi və diaspor qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Eyni zamanda bu ilin yanvarın 18-də Prezident İlham Əliyev 1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında sərəncam imzalayıb. Sərəncamda bildirilir ki, erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "Böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər.

Azərbaycan xalqı ürəkdən inanır ki, ölkə Prezidentinin apardığı qətiyyətli siyasət gec-tez üzləşdiyimiz münaqişənin beynəlxalq hüquq normaları əsasında ədalətli həllini təmin edəcəkdir.

4_Layout 1 28.03.2018 17:12 Page 1



## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ - 100

# ŞƏRQİN İLK DEMOKRATİK RESPUBLİKASI...



*(əvvəli ötən sayımızda)*

Azərbaycan hökuməti 14 bölmədən ibarət olan “Qafqaz Azərbaycan Respublikası nümayəndələrinin Versal Sülh Konfransına memorandumu” adlı sənəd təqdim etdi. Memorandumun ən əhəmiyyətli bölmələri AXC-nin ərazisi və əhalisi ilə bağlı bölmələr idi. Ermənilərin, gürcülərin və iranlıların konfransa təqdim etdikləri ərazi iddiaları bilavasitə Azərbaycana aid olduğu üçün Azərbaycanın hüdudları barədə konfransın rəhbərlərində aydın təsəvvür yaradılması zərurəti meydana çıxmışdı. Bu memorandumda Qafqaz Azərbaycanının ərazisi keçmiş inzibati bölgü sistemi üzrə yeddi maddədən ibarət göstərilmişdi. Ə.M.Topçubaşov bu münasibətlə yazırdı: “Mənim tərəfimdən ermənilər haqqında deyilənlər Qərb diplomatları üçün tamamilə yenilik idi”.

1919-cu ilin yayında Paris Sülh Konfransında Azərbaycan nümayəndələrinin qarşılaşdığı ciddi məsələlərdən biri də erməni nümayəndələri ilə münasibətlər idi. Ermənilər Paris Sülh Konfransının onların bütün problemlərini həll edəcəyinə ümid bəslədikləri üçün ona ciddi hazırlaşmışdılar. Onlar Aralıq dənizindən Qara dənizə, Qara dənizdən Xəzər dənizinə qədər “Böyük Ermənistan” yaratmaq barədə tələblərini sülh konfransına təqdim etmişdilər. Belə böyük iddiaların nəticəsi idi ki, ermənilər Parisə iki nümayəndə heyəti göndərmişdilər.

Ə.M.Topçubaşov Paris Sülh Konfransında görüşdüyü müxtəlif nümayəndə heyətlərinin üzvləri ilə söhbətlərində və böyük dövlətlərin başçılarına və xarici işlər nazirlərinə göndərdiyi notalarda “erməni əzabkeşliyinin” iç üzünü açıb göstərmiş və erməni millətçilərinin əsl simasını üzə çıxara bilmişdi. Parisdəki erməni nümayəndələri isə Qarabağda özlərinin törətdiyi cinayətləri başqalarının ayağına yazır və bununla da müttəfiq ölkələrin nümayəndələri qarşısında Azərbaycan Respublikasını və onun Versaldakı nümayəndələrini nüfuzdan salmağa çalışırdılar.

Azərbaycan hökuməti təklif etdi ki, erməni-azərbaycanlı münaqişəsini təhqiq etmək üçün beynəlxalq istintaq komissiyası yaradılsın. Bu məsələ Parisdə olan Azərbaycan nümayəndələri tərəfindən də qaldırılmışdı. Əvvəllər beynəlxalq istintaq komissiyasının yaradılmasına ermənilər razılıq versələr də, sonralar müxtəlif bəhanələrlə bu işi pozdular. Lakin 1919-cu ilin yayında Azərbaycan hökumətinin qəti mövqeyi və məqsədyönlü siyasəti nəticəsində respublikanın Qarabağda suveren hüquqları bərpa edildi. Azərbaycanın Parisdə olan nümayəndə heyətinə göndərilən məlumatda qeyd edilirdi: “Qarabağ məsələsi adlandırılan məsələ qəti şəkildə həll edildi. VII erməni qurultayında Qarabağ ermənilərinin nümayəndələri Azərbaycan hökumətinin hakimiyyətini tanımaq barədə general-qubernator X.P.Sultanovla saziş bağladılar”. Bu sənəd Ə.M.Topçubaşov tərəfindən Versal Ali Şurasına təqdim edilmişdi.

1919-cu il yanvarın 8-də Azərbaycan Parlamentinin iclasında çıxış edən parlamentin sədri bildirmişdi: “1917-ci ilin dekabrından 1919-cu ilin iyununa kimi erməni qoşunları tərəfindən İrəvan quberniyasında 200-dən çox azərbaycanlı kəndi dağıdılmış və yandırılmışdı. Tərk edilmiş azərbaycanlı kəndlərinə Türkiyədən olan ermənilər yerləşdirilir”.

AXC hökumətinin Baş naziri F.Xoyski Ermənistan hökumətinə göndərdiyi notada azərbaycanlılara qarşı təcavüz siyasətinin dayandırılmasını qəti şəkildə tələb edirdi. Lakin münasibətləri bərpa etmək mümkün olmadı. Ermənilər azərbaycanlıların malını, mülkünü talan edir, evlərini yandırırdılar. Belə ki, daşnak hökumətinin qoşunları Zəngibasar bölgəsini talan etdikdən sonra, talançıların apardıqları qənimətlərdən əlavə, dövlətə qalan 82 adda külli miqdarda əmlak 1920-ci il avqustun 2-də maliyyə nazirinin sərəncamı ilə hərraca qoyulmuş və əldə edilmiş məbləğ dövlət büdcəsinə keçirilmişdi.

Amerika Birləşmiş Ştatları da ermənilərə həm hökumət, həm də ayrı-ayrı ermənipərəst təşkilatlar vasitəsilə yardımlar edirdi. ABŞ-ın İstanbuldakı baş komissarı admiral Bristol 1921-ci il martın 28-də doktor Bartona göndərdiyi məktubunda Ermənistanın ABŞ-a olan borcları haqqında yazırdı: “Sizin məktubunuzdan öyrəndim ki, Ermənistana borc pul verilməsi uğrunda hərəkat başlanmışdır, həqiqətən çox təəccübləndim. Biz artıq Ermənistana 50 milyon dollardan artıq vermişik və o pul itirilib. Mən belə borclar verilməməsini təklif edirəm. Başqa bir borc verilməsi, sadəcə yaxşı pulu pis işə sərf etmək olardı”.

1918-1920-ci illərdə Qarabağda soyqırımı törədən erməni daşnakları kəndləri məhv edərək, minlərlə azərbaycanlını öz doğma yurd-yuvasından qovdu. Nuru paşanın rəhbərliyi ilə Türk-İslam Ordusu Xosrov bəy Sultanovun başçılıq etdiyi müqavimət hərəkatı ilə birgə 1920-ci il iyun ayının əvvəllərində Şuşanı XI ordunun silahlı dəstələrindən təmizləyə bilsə də, Dağlıq Qarabağa rus və erməni quldurlarına kömək məqsədi ilə gətirilmiş birləşmiş ordu hissələri iyunun 15-də Şuşada Sovet hökumətini bərpa etdi.

1920-ci il aprel ayının ortalarında Azərbaycan parlamenti Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveç, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada diplomatik nümayəndəliklər təsis etmək haqqında qanun qəbul etdi. Bir sıra xarici dövlətlərin nümayəndəlikləri isə Azərbaycanda fəaliyyətə başlamışdı. Artıq AXC hökuməti beynəlxalq əlaqələr sisteminə daxil olurdu. Bu da Şərqdə ilk demokratik müsəlman dövlətinin fəaliyyətinin genişləndirilməsini istəməyən qüvvələri bərk təşvişə salmışdı. Aprelin 28-də XI ordunun Azərbaycanı işğalı ilə Şərqin ilk demokratik müsəlman dövləti - Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi respublikamızın beynəlxalq münasibətlər sistemində müstəqil dövlət kimi iştirakını dayandırdı.

1920-ci ildə mövcud tarixi şəraitin doğurduğu qarışıqlıqlar içərisində itirilmiş milli dövlətçiliyimizin XX əsrin sonunda yenidən bərpası xalqımızın milli-azadlıq ruhunun yaşadığını təsdiqlədi. 26 il əvvəl, 1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının qəbul olunması ilə Azərbaycan xalqı tarixinin yeni mərhələsinin başlanğıcına qədəm qoydu.

Xalqın təkidi ilə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra müstəqilliyimizin davamlı və əbədi olması yolunda qətiyyətli addımlar atıldı və bu sahədə qarşıya çıxan çətinliklər aradan qaldırıldı.

Bu gün Heydər Əliyev siyasi kursunun layiqincə davam etdirilməsi, Prezident İlham Əliyevin düşünülmüş strategiyası müstəqil Azərbaycanı dünyanın inkişaf etmiş demokratik dövlətlərindən birinə, beynəlxalq aləmdə söz sahibinə çevirib. Dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının öz tədbirlərini Azərbaycanda keçirmələri, ötən il böyük təntənə ilə başa çatmış, beynəlxalq ictimaiyyətin diqqətini respublikamıza cəlb etmiş IV İslam Həmrəyliyi Oyunları da ölkəmizin təkcə müsəlman aləmində deyil, dünya birliyində də sayılıb-seçilən dövlət olmasından xəbər verir.

**Havva Məmmədova,**
**tarix elmləri doktoru,**
**professor**

## ŞANLI, İGİD AZƏRBAYCAN ƏSGƏRİ

*Sən Vətənin namus, qeyrət*
*rəmzisən,*
*Döyünən ürəyi, vuran nəbzisən.*
*Böyük qələbəyə yetir bizi sən,*
*Ey odlar yurdunun pələngi, nəri,*
*Şanlı, igid Azərbaycan əsgəri!*

*Qeyrət damarından Kür, Araz axır,*
*Anaların göz yaşından Haqq baxır,*
*Düşmənin qəlbindən silinməz baxır,*
*Sən sil yer üzündən iblisi, şəri,*
*Şanlı, igid Azərbaycan əsgəri!*

*Vətən sənin ürəyindən başlayar,*
*Gözlərinin bəbəyindən başlayar,*
*Xan Arazın sellərindən başlayar.*
*Torpağa ruzudur alnının təri,*
*Şanli, igid Azərbaycan əsgəri!*

*Tutulan torpağı kim alacaq, kim?*
*Sənsiz bu dərdlərə tapılmaz həkim.*
*Göstər bir rəşadət, elə bir hökm!*
*Hünər meydanında qazan zəfəri,*
*Şanlı, igid Azərbaycan əsgəri!*

*Mərdan da xalqıyla birgə ucalar,*
*Hər yerdə hər zaman qələbə çalar,*
*Ömrünü Vətənin ömrünə calar,*
*Sıxar sinəsinə ana səngəri,*
*Şanlı, igid Azərbaycan əsgəri!*

**Mərdan Hüseynli,**
**Azərbaycan Yazıçılar**
**Birliyinin üzvü,**
**ehtiyatda olan zabit**

## idman

# SƏRBƏST GÜLƏŞ ÜZRƏ DAXİLİ QOŞUNLARIN BİRİNCİLİYİ UĞRUNDA YARIŞ KEÇİRİLİB

Martın 17-də 99713 saylı hərbi hissədə Daxili Qoşunların birinciliyi uğrunda sərbəst güləş üzrə yarış keçirilib. Yarışda Ali Hərbi Məktəbdən, 99713, 67987, 16075, 25031 və 16076 saylı hərbi hissələrdən 6 komanda (42 nəfər) iştirak edib. Şəxsi və komanda birinciliyi uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olub:



**60 kq çəki dərəcədə**

**I yer** - əsgər Mahmudalı İsmayılov (16075 saylı hərbi hissə);
**II yer** - baş çavuş Nurlan Orucov (16075 saylı hərbi hissə);
**III yer** - çavuş Kamal Məmmədli (16075 saylı hərbi hissə).

**II yer** - kursant Coşqun Hudulov (AHM);
**III yer** - çavuş Məhəmməd Musayev (25031 saylı hərbi hissə).

**66 kq çəki dərəcədə**

**I yer** - baş çavuş Eldar Məmmədov (99713 saylı hərbi hissə);

**74 kq çəki dərəcədə**

**I yer** - əsgər Şamil Qurbanov (16075 saylı hərbi hissə);
**II yer** - baş leytenant Nadir Şərifov (16075 saylı hərbi hissə);
**III yer** - əsgər Asif Əliyev (25031 saylı hərbi hissə).

**84 kq çəki dərəcədə**

**I yer** - baş çavuş Tahir Əmraslanov (99713 saylı hərbi hissə);
**II yer** - əsgər Elnur Osmanov (67987 saylı hərbi hissə);
**III yer** - əsgər Vüsal Sədiyev (25031 saylı hərbi hissə).

**96 kq çəki dərəcədə**

**I yer** - çavuş Əli Bayramov (99713 saylı hərbi hissə);
**II yer** - baş əsgər Ruslan Kübərov (67987 saylı hərbi hissə);
**III yer** - baş çavuş Orxan Əliyev (67987 saylı hərbi hissə).

**120 kq çəkidən yuxarı dərəcədə**

**I yer** - baş leytenant Seymur Rzayev (99713 saylı hərbi hissə);
**II yer** - əsgər Vüqar İsmayılov (99713 saylı hərbi hissə);
**III yer** - gizir Kamil Əliyev (67987 saylı hərbi hissə).

Komanda üzrə 99713 saylı hərbi hissə 31 xalla ilk pillədə qərarlaşmağı bacarıb. 16075 və 67987 saylı hərbi hissələr isə 21 və 8 xal qazanmaqla müvafiq olaraq 2-ci və 3-cü yerləri bölüşüblər.

**leytenant N.Ağayeva**

## metodiki vəsait

# UĞURLU ÜNSİYYƏT

***İnsanlar birgə yaşayış və birgə fəaliyyət zamanı daima bir-biri ilə informasiya mübadiləsi aparır, bir-birinə qarşılıqlı təsir göstərir və ya bir-birini qavrayır və anlayırlar. Başqa sözlə ünsiyyətə girirlər. İnsanın hər cür fəaliyyətində ünsiyyət zəruri şərt kimi özünü göstərir. Ünsiyyət olmadan insanların birgə fəaliyyəti həyata keçirməsi mümkün deyil.***

Hər şeydən öncə birinci özünə inamdır. Bununla siz özünüzün bir tərəfdaş kimi nə qədər güvənli olduğunuzu göstərirsiniz. Daxili əminlik qarşınızdakı insanın sizə etibar edə biləcəyinə inam hissi yaradır.

Uğurlu ünsiyyətin ikinci sirri etibar üzərində dayanır. Həmsöhbətin gözlərinə dik baxmaq çox vacibdir. Beləliklə siz göz (vizual) kontaktı qurmuş olursunuz. Əgər insan gözlərini yayındırırsa, ola bilsin ki, o ya yalan danışır, ya da söhbət onu maraqlandırmır. İnsanın öz adı kimi başqa heç bir söz onun könlünü oxşaya və ona müsbət təsir bağışlaya bilməz. Məhz buna görə də uğurlu ünsiyyətin üçüncü sirri həmsöhbəti öz adı ilə çağırmaqdır. Qarşındakı insanın sizinlə ünsiyyətə girməyini istəyirsənsə, onun dünyagörüşünə, marağına səbəb ola bilən mövzular seçilməlidir. Hər bir insan özü haqqında danışmağı sevir. İnsanlarla ünsiyyətə girəndə çalışmalıyıq ki, inam, etibar, güvən qazanaq ki, o öz daxili aləmini bizimlə bölüşsün və bunun nəticəsində bizi gözləyən hadisələrin pis nəticələrindən uzaq olaq.

Uğurlu bir ünsiyyətə gedən yol həm də qarşılıqlı hörmətdən keçir. Ünsiyyətdə olduğunuz şəxsin keçmişinə də, indisinə də hörmətlə yanaşmanız şərtdir. Qarşınızdakı insanla danışan zaman gözlərinə baxaraq danışın ki, sizin onu duyduğunuzu hiss edə bilsin. Lazım deyil ki, gözlərinizi heç çəkmədən qalasınız, o sizə baxdıqca baxışlarınızın toqquşması kifayət edir. Hətta arada gözünüz onun gözündə ikən başınızı tərpətməklə də doğru olanı ifadə etməyə çalışın. Qoy sizi dinləyən hiss etsin ki, bu söhbəti ürəklə dinləyirsiniz, onun dərdinə şəriksiniz, məcburən yox.

Vacib bir məqam olmayınca qarşınızdakının sözünü kəsməyə can atmayın. Hətta uzun danışmağı sevən birilə həmsöhbətsinizsə belə, səbirlə söhbəti dinləməlisiniz. Bəzən sizə elə gələ bilər ki, həmin insanın nə deyəcəyini artıq təxmin etmisiniz, amma yanıla bilərsiniz deyə gözləməyiniz lazımdır. Belə bir müşahidə aparın: əgər ünsiyyət yaratdığınız şəxs hər dəfə sizin verdiyiniz suallara uzun-uzadı söhbətlə cavab verməyə çalışırsa, deməli, bu şəxsin fikirlərində bir qarışıqlıq var. Belə olduqda çalışmalısınız ki, daha dəqiq cavab alacağınız suallar verəsiniz.

Hər hansı bir hadisəyə fərz etmək yoluyla yanaşmaq çox asandır. Amma fərziyyələr çox zaman doğru çıxmaya da bilər. Çünki təbiətinə görə insanlar bir-birinə yaxın, vərdişlərinə görə isə bir-birindən uzaqdırlar. Demək ki, bir şəxsə yanaşmanız digər şəxs üçün keçərli olmaya bilər. Yeni bir adamla ünsiyyət qurduğunuzda çalışın qarşınızdakını heç kimlə müqayisə etməyin. Şübhə etdiyiniz məqam olarsa, suallar verin və nəticəyə tələsib qərar çıxarmadan olub keçənləri öyrənməyə çalışın.

Ünsiyyətdə vacib şərtlərdən biri də qarşındakının əksini yaratmağı bacarmaqdır. Bura əl hərəkətləri, üz mimikaları, göz hərəkətləri, əzələ gərginliyi, nəfəsalma tərzi kimi hallar daxildir. Əks etmə bir ünsiyyətin açarı olmaqla yanaşı, həm də ünsiyyəti asanlaşdıran bir strateji mövqedir. Lakin bunu edərkən həddi aşmamaq, hər şeyi bir çərçivədə saxlamaq lazım olduğunu da gərək unutmayasınız. Əgər qarşındakı şəxs qamətli bir şəkildə oturmayıbsa, siz də belinizi bir qədər əyərək oturun. O, sizə gülümsəyirsə, qarşılıqlı olaraq siz də ona mehriban davranın. Çünki qarşınızdakının sizə güvəni yaransın və danışmağa bir qədər də cəsarətlənmiş olsun ki, səmimi olub öz problemlərini sizinlə bölüşsün. Necə deyərlər: insan var dərya kimidir, qarşında durur və heç nəyi görə bilmirsən; insan var ki, şüşə kimidir - dünyanı sənə göstərməyə çalışır; insan var ki, ayna kimidir, səni özünə göstərməyə çalışır. Bir ünsiyyət qurmaq istəyirsinizsə, ilk əvvəl səmimi olun, xoş ünsiyyət yaratdığınızda və qarşınızdakı insana daha səmimi davrandığınızda heç bir işinizin tərs getməyəcəyinin şahidi olacaqsınız.

Söylədiklərinizi yaxşıca düşünməli, qarşı tərəfin fikirlərinə hörmətlə yanaşmalıyıq. Mehriban, nizamlı və səlis ünsiyyət hamı tərəfindən hər zaman rəğbətlə qarşılanıb. Söylədiyimiz hər sözdə, ifadə etdiyimiz hər fikirdə qarşı tərəfi nəzərə alaq. Yalnız bu təqdirdə gözəl ünsiyyətin sirrini asanlıqla tapa bilərik.

Bir sözlə, insanlarla ünsiyyətdən çəkinməyin.

**baş leytenant Z.Rzaquliyeva,**
**16076 saylı hərbi hissənin**
**Tərbiyə işləri üzrə bölməsində**
**təlimatçı-psixoloq**


TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000